# MÜNDƏRİCAT


MÜNDƏRİCAT ........ 0

1. STRATEGİYAYA SADİQLİK ........ 1
2. 18+ YAŞ MƏHDUDİYYƏTİ ........ 1
3. OYUN İŞTİRAKÇILARI ........ 2
4. MARKETİNQ ........ 5
5. OYUN DİZAYNI ........ 6
6. VİRTUAL MƏKAN ........ 6
7. SATICILAR VƏ ARAŞDIRMALAR ........ 6
8. İŞÇİLƏR ........ 7
9. OYUN ASILILIĞI ........ 7

## 1. Strategiyaya sadiqlik

Öncəki hesabatdan da məlum olduğu kimi, "Azərlotereya" ASC-nin Müşahidə Şurasının 17 oktyabr 2022-ci il tarixli qərarı ilə şirkətin məsuliyyətli oyun idarəçiliyi, işçi təlimi, pərakəndə satıcıların idarə edilməsi, oyun dizaynı, rəqəmsal kanallar, reklam və marketinq, psixoloji dəstək, oyunçu təhsili, maraqlı tərəflərlə iş və araşdırma biznes proseslərinin Avropa Lotereyaları və Toto Assosasiyasının (EL) "Məsuliyyətli Oyun" standartlarına uyğunlaşdırılması üçün İdarə Heyətinə müvafiq səlahiyyətlə verilmişdir. Bu səlahiyyətlərin icrası çərçivəsində şirkətin biznes proseslərinin "Məsuliyyətli Oyun" standartlarına uyğunlaşdırılması üçün müvafiq sənədlər hazırlanmış və icra edilməkdədir.

## 2. 18+ yaş məhdudiyyəti

Avropa Lotereyaları "Məsuliyyətli Oyun" standartlarının VIII bəndi və milli qanunvericilik lotereyaların və idman mərc oyunlarının müəyyən yaş limitli olduğunu və bu barədə məlumatın vebsaytda yerləşdirilməli olduğu bildirir. 05 mart 2004-cü il tarixli "Lotereyalar haqqında" Azərbaycan Respublikası qanununun 2.0.11-ci maddəsinə uyğun olaraq, ölkəmizdə bu yaş 18 yaşdır. Buna görə də, 18 yaşına çatmamış şəxslərin oyunlara cəlb edilməməsi məqsədilə, ilk növbədə rəsmi vebsaytlarımızda və marketinq kommunikasiyalarımızda oyunların 18 yaşına çatmış şəxslər üçün nəzərdə tutulduğunu qeyd edirik. Məsələn, vebsaytımızda aşağıdakı simvol yerləşdirilir:




Eyni xəbərdarlıq lotereya biletlərinin arxa tərəfində də yerləşdirilir:



Eyni xəbərdarlıq "Misli" məntəqələrinin qapısının üzərində yerləşdirilir:




Eyni zamanda, satıcıların 18 yaşına çatmamış şəxslərə bilet satmamalı olduqları barədə öhdəlik onlarla bağlanan müqavilələrdə öz əksini tapmışdır. 01.01.2023-cü il - 31.12.2023-cü il tarixlərində məsuliyyətli oyun aktını (MSA) 1053 satıcı imzalamışdır və bu proses hər gün davam edir.

### 3. Oyun iştirakçıları

Məsuliyyətli oyun standartlarının reallaşdırılması üçün oyun iştirakçılarının da lotereya və idman mərc oyunları oynayarkən necə davranmalı olmaları əhəmiyyətlidir. Doğru davranış modeli iştirakçılara bildirilməlidir. Bəzi davranış modellərinin operator tərəfindən məhdudlaşdırılması texniki səbəblərdən mümkün olmaya bilər.

Avropa Lotereyaları "Məsuliyyətli Oyun" standartlarının VIII bəndinə uyğun olaraq, oyun qaydaları oyun iştirakçıları üçün əlçatan olmalı, hər oyun üzrə uduşlar və uduş strukturu açıqlanmalı, məsuliyyətli oyunla bağlı məlumat, yaş limitlərinə dair məlumat, özünüistisna alətlərinə dair məlumat operatorun vebsaytında açıqlanmalıdır.

Bu bəndin bir sıra tələbləri həm də milli qanunvericilikdə də əks etdirilmişdir. Bu tələbə riayət edilməsi üçün 2023-cü ildə bir çox lotereya oyunlarının şərtləri (oyun qaydaları və uduşlara dair məlumat) daha asan və oxunaqlı dildə yenidən yazılaraq vebsaytda yerləşdirilmişdir. Məsələn: https://azerlotereya.com/az/content/78

## MEQA 5/36

**ONLAYN OYNA!**

"Meqa 5/36" tirajlı lotereyası hər gün saat 19:45-də "Xəzər" TV-də canlı yayımla keçirilir.

Yalnız 18 yaşına çatmış şəxslər oyunda iştirak edə bilərlər.

**Necə oynanılır?**

- Hər kuponun üzərində 1-dən 36-yadək nömrələnmiş 8 oyun lövhəsi var.
- Bir kuponda ən azı 3 oyun lövhəsini işarələ və hər lövhədə ən az 5 rəqəm seç
- Eyni biletlə bir neçə ardıcıl tirajda iştirak etmək istəyirsənsə, tirajların sayı xanasını işarələ
- Hər kuponda ən azı 3 variant qeyd edilməlidir. Bir variantın qiyməti 50 qəpik, bir biletin qiyməti isə minimum 2 manatdır.
- Kuponu doldurduqdan sonra "Mıslı" və lotereya satış məntəqələrinə yaxınlaş, kuponu təqdim edərək bilet al
- Bilet bir neçə kateqoriya üzrə uduşlu ola bilər
- İşarələnən rəqəmlərdən 2, 3, 4 və 5-i lototrondan çıxan nömrələrlə uyğun olarsa, bilet uduşlu sayılır
- 5 nömrənin uyğun olduğu variant **CEKPOT** oyununda iştirak edir
- Lototrondan çıxan nömrə digər 5 rəqəmdən biri ilə eynilik təşkil edərsə, **CEKPOT** udulur.
- Kuponda hər 3 varianta görə 50 qəpik məbləğində 1 ədəd 7 rəqəmli Meqa 5 ID kod təyin olunur. Həmin ID kodla hər gün keçirilən 100% uduşlu **MEQA 5** oyununda 1 000 manat qazanmaq şansı əldə etmək olar.
- MEQA 5/36 lotereya biletlərini istənilən vaxt **az** saytından, həmçinin MİSLİ məntəqələri, "Azərpoçt" şöbələri və lotereya satış nöqtələrindən əldə edə bilərsən.
- Oyun qaydalarında dəyişiklik olarsa, əvvəlcədən KİV-lə məlumat veriləcək.

Ani lotereya biletlərinin də dizaynında dəyişiklik edilərək mətnlər sadələşdirilmişdir:

**Necə oynanılır?**

- Oyun sıralarında **7** və **UDUŞ** xanalarını poz.
- 7 simvolunu tap və qarşısındakı müvafiq məbləği qazan.
- simvolunu tap və bütün məbləğləri qazan.

| Uduş məbləği | Ödənilən məbləğ | Uduşlu biletlərin sayı | Uduşların ümumi məbləği |
|---|---|---|---|
| 2 | 2,00 | 1 144 000 | 2 288 000 |
| 4 | 4,00 | 936 000 | 3 744 000 |
| 5 | 5,00 | 650 000 | 3 250 000 |
| 10 | 10,00 | 325 000 | 3 250 000 |
| 20 | 20,00 | 136 500 | 2 730 000 |
| 40 | 40,00 | 30 940 | 1 237 600 |
| 100 | 100,00 | 2 736 | 273 600 |
| 1 000 | 950,20 | 68 | 68 000 |
| 10 000 | 9 050,20 | 12 | 120 000 |
| 50 000 | 45 050,20 | 4 | 200 000 |

22222-2222222-222

Satışa buraxılan ani lotereya biletlərinin ümumi sayı: 13 000 000 (on üç milyon) ədəddir.

Uduşun verilməsi üçün bilet tamlığı pozulmadan təqdim olunmalıdır. Cırılmış, zədələnmiş və seriya nömrəsi oxunmayan bilet qəbul olunmur və uduş ödənilmir.
3 000 manatadək uduşlar satış yerlərində nağd, 3 000 manatdan yuxarı uduşlar "Azərlotereya" tərəfindən nağdsız qaydada ödənilir.
Uduş məbləğindən biletin qiyməti və 500 manat çıxıldıqdan sonra 10 faiz dərəcə ilə vergi tutulur.
Uduşların verilmə prosesi və digər bütün məlumatlarla www.azerlotereya.com saytında tanış ola bilərsən.
"Scientific Games - Birləşmiş Krallıq" tərəfindən dizayn və çap olunub.

4 760171 930013 >

"Lotereyalar haqqında" qanunun 6.5-ci maddəsinə uyğun olaraq, ani lotereyanın uduş fondunun həcmi buraxılmış lotereya biletlərinin ümumi məbləğinin 50%-dən az olmamalıdır. Buna görə də, uduş fondu haqda məlumat yerləşdirilərkən, oyun iştirakçılarının məlumatlı olması üçün bu göstəriciyə dair də məlumat yerləşdirilir. Məsələn, https://azerlotereya.com/az/content/141 linkinə daxil olub baxsaq görərik ki, "Dan ulduzu" ani lotereyasında bu göstərici 67%-ə bərabərdir:

Oyun iştirakçılarının məsuliyyətlə oynamasını təşviq etmək üçün biz rəsmi vebsaytlarımızda "Məsuliyyətlə oyna!" çağırışını yerləşdirdik. Bu çağırışda biz oyun iştirakçılarına əyləncəni yaşamağı, yəni oyuna gəlir mənbəyi kimi deyil, əyləncə kimi yanaşmağı, məlumatlı olmağı, yəni oyun şərtləri ilə tanış olmağı, ölçülü olmağı, yəni oyun üçün şəxsi limitlər təyin etməyi və 18+ yaş məhdudiyyətinə riayət etməyi tövsiyə edirik. Ətraflı: https://azerlotereya.com/az/content/93 və ya https://www.misli.az/mesuliyyetli-oyna.

Bu çağırışlar həm də mütəmadi olaraq şirkətimizin instagram səhifəsində yerləşdirilir:






Bu çağırışın düzgün başa düşüldüyündə əmin olmaq üçün https://www.misli.az/mesuliyyetli-oyna bölməsində "Doğru, yoxsa Yanlış" testini keçərək bilikləri ölçmək mümkündür. 2023-cü il ərzində 2000-dən çox oyun iştirakçısı bu testdə iştirak etmişdir. Maraqlıdır ki, sualların birinə verilən səhv cavab sayı doğru cavab sayından çox olmuşdur. Digər suallarda isə doğru cavab verənlərin sayı böyük fərqlə üstünlük təşkil edir. Səhv cavab verənlərə də doğru cavab nümayiş etdirilir və izah edilir.

Şans oyunları bəzən aludəçilik yarada bilir. Bununla mübarizə aparmağın bir neçə üsulu var. Əvvəla, diaqnostika. https://www.misli.az/mesuliyyetli-oyna bölməsində hər bir oyun iştirakçısı Kanada Problemli Mərc etmə indeksinə əsasən hazırlanmış dəyərləndirmə testindən yararlana bilər. 2023-cü il ərzində 348 oyun iştirakçısı bu testi keçmişdir.

Oyun iştirakçılarına verilmiş daha bir imkan oyundan uzaqlaşmaqdır ("özünü istisna"/"self-exclusion"). Yaşana biləcək mənfi halların böyüməsinə mane olmaq məqsədilə misli.az oyun platformasında qeydiyyatdan keçmiş hər bir oyun iştirakçısına müəyyən müddət ərzində misli.az-dan istifadəni məhdudlaşdırmaq imkanı yaradırıq. Bu imkandan yararlanmaq üçün şəxsi kabinetdə sol tərəfdə aşağıda yerləşən "Şəxsi kabinetin dondurulması" bölməsinə daxil olaraq səbəbi qeyd edərək şəxsi kabineti 3 gündən 4 həftəyədək və ya müddətsiz dondurmaq mümkündür. 2023-cü il ərzində 9616 oyun iştirakçısı şəxsi kabinetin dondurulması imkanından istifadə etmişdir.

## 4. Marketinq

"Azərlotereya" ASC-nin Məsuliyyətli Marketinq Məcəlləsinin tələblərinə uyğun olaraq, şirkətin marketinq kommunikasiyaları aşağıdakı məsuliyyətli oyun tələbləri nəzərə alınmaqla həyata keçirilir:

- Marketinq kommunikasiyalarında lotereyalarda və ya idman mərc oyunlarında iştirakın cəmiyyətdə nüfuz qazanmaq vasitəsi olması fikri yaradılmamalı, lotereyalarda iştirak etməyənlərin nüfuzdan salınmasına yol verilmir.
- Marketinq kommunikasiyaları lotereya və idman mərc oyunlarını insanların normal rutin həyatının qaçılmaz hissəsi olmasını, onların ailə, dostlar, iş və təhsildən vacib olmasını təbliğ etmir;
- Marketinq kommunikasiyalarında lotereyalarda və ya idman mərc oyunlarında qazanc əldə edilməsinə zəmanət verilməməli, uduş şansları barədə yanlış və çaşdırıcı məlumatlar verilməməlidir, lotereya və idman mərc oyunlarının riskli

olmaması və maliyyə itkilərinə səbəb olmaması təbliğ olunmamalı, bütün iştirakçıların mütləq qazanacağı vədini verməməli, "itirəcəyin heç nə yoxdur", "mütləq qazanacaqsan", "daha çox oyna daha çox qazan" tipli təhrikedici cümlələrdən istifadə edilmir;

- Marketinq kommunikasiyalarında lotereya və ya idman mərc oyunlarında iştirak insanların şəxsi və maliyyə problemlərinin həlli yolu, investisiya aləti və məşğulluq növü kimi təqdim edilməməli, iştirakçıların oyunlarda itirdikləri məbləğləri kompensasiya etmək üçün daha çox oynamağa cəsarətləndirmir;
- Marketinq kommunikasiyaları oyun asılılığı yaratmaq üçün reklam və promo kampaniyaları ehtiva etmir, ifrat, limitsiz və ya dəfələrlə təkrarlanan oyun tərzini və ya nəzarətsiz (kompulsiv) alışları təbliğ etmir;

### 5. Oyun dizaynı

Daxili prosedura uyğun olaraq, yaradılan hər bir oyun meyarlar (uduş fondunda "50% tələbi"nə uyğunluq, "oyun savadlılığı" meyarı və sair) üzrə dəyərləndirilir.

### 6. Virtual məkan

- "Azərlotereya" ASC oyunların 18+ olmasını virtual mühitdə, o cümlədən şirkətin rəsmi vebsaytlarında qeyd edir;




- "Azərlotereya" ASC 18 yaşı tamam olmamış oyunçular tərəfindən uduş götürülməsinə imkan vermir və onların virtual mühitdəki şəxsi kabinetini aşkarladıqda onu bağlayır;
- "Azərlotereya" ASC iştirakçılara oyunlarda iştirak üçün kredit imkanları təqdim etmir;
- "Azərlotereya" ASC Oyunçuya oyunun sürətinin artırılması imkanı ("turbo-oyun") vermir və avtooyun rejimi istənilən vaxt dayandırıla bilir;
- "Azərlotereya" ASC iştirakçılara oyun asılılığı ilə bağlı məsləhət və ya müalicə almaq üçün iştirakçını peşəkar psixoloqa yönləndirir;

### 7. Satıcılar və araşdırmalar

2023-cü ildə 2505 satıcıya Məsuliyyətli Oyun siyasəti ilə bağlı təlim keçirilmişdir.

Satıcılar tərəfindən Məsuliyyətli oyun siyasətinin tələblərinə riayət edilməsini ölçmək üçün Bakı, Sumqayıt və Gəncə şəhərlərində yerləşən 91 "Misli" məntəqəsində 20 oktyabr 2023-cü il- 01 dekabr 2023-cü il tarixlərində "Gizli müştəri" yoxlaması

həyata keçirilmişdir. Yoxlama nəticəsində məntəqələrin məsuliyyətli oyun prinsiplərinə uyğun davranışı 5 ballıq reytinq üzrə 4.59 balla dəyərləndirilmişdir.

## 8. İşçilər

Yeni işə alınan bütün işçilərə keçirilən təlimlər zamanı onlara məsuliyyətli oyun standartları barədə məlumat verilir.

## 9. Oyun asılılığı

Əgər oyun iştirakçısı onda alüdəçiliyin yarandığını düşünürsə, o +99412 566 24 09 nömrəsinə və ya *2070 Çağrı Mərkəzinə zəng etməklə Psixoloji yardım üçün Azərbaycan Respublikası Psixi Sağlamlıq Mərkəzi ilə əlaqə saxlaya bilər.